# Zəfərin Laçın yolu








**Şanlı Zəfərimizlə bitən Vətən müharibəsindən ötən 3 il ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında böyük tikinti-quruculuq işləri həyata keçirilib və bu, uğurla davam etdirilir.**

Əlbəttə ki, həmin ərazilərdə hərəkətin tənzimlənməsi üçün ilk növbədə yolların yenidən qurulması, körpü və tunellərin tikintisi xüsusi əhəmiyyət kəsb edir. Həm bərpa-quruculuq işlərinin intensivləşdirilməsi, həm də tranzit-logistik baxımdan yolların inşası təxirə salınmadan həyata keçirilir.

Prezident İlham Əliyev işğaldan azad edilmiş şəhər və rayonlarımıza səfərləri çərçivəsində yeni yolların açılışlarını edir və tikinti işlərinin sürətlə aparılması ilə bağlı ciddi tapşırıqlarını verir.

Bu bölgədə 2026-cı ilədək 2300 kilometrə yaxın 20 avtomobil yolu layihəsinin icrası nəzərdə tutulur. Artıq İlham Əliyevin "Zəfər yolu" adlandırdığı avtomobil yolunun və Tərtər-Çaylı-Suqovuşan-Talış yolunun və Laçın şəhərinə daxil olmadan yeni alternativ yolun inşası başa çatdırılıb. Bu il daha 12 layihənin icrasının tamamlanması nəzərdə tutulur.

Prezidentin tapşırığına uyğun olaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Laçın şəhərinin daxili yollarının bərpası layihəsi sürətlə və keyfiyyətlə icra olunur.

Uzunluğu təqribən 70 kilometr təşkil edən Laçın şəhərinin daxili yollarının yenidənqurulması mərkəzi küçələrin və məhəllədaxili yolların bərpasından ibarətdir. Küçə və məhəllədaxili yolların eni 4-11 metr arası dəyişir. Layihə çərçivəsində yararsız örtük sökülür, zəruri olan yerlərdə yararsız qrunt qazılaraq çıxarılır, ardınca yararlı materiallardan istifadə olunmaqla əks dolğu işləri icra olunur, yeni yol yatağı və yol əsası inşa edilir. Yol əsası hazır olan hissələrə isə lazımi qalınlıqda yeni asfalt-beton örtüyü döşənir. Artıq bir çox küçə və yollarda sadalanan işlər yekunlaşıb.

Tikinti-bərpa işləri inşaat norma və qaydalarına uyğun, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin şəxsi nəzarəti altında həyata keçirilir.

Yenidənqurma işlərinin yaxın müddət ərzində yekunlaşdırılması planlaşdırılır. Bunun üçün əraziyə lazımi sayda işçi qüvvəsi və texnika cəlb olunub.

Laçın şəhərinin daxili yollarının bərpası ilə bağlı ərazidə müasir yol infrastrukturu qurulur ki, bu da sakinlərin və bura gələn qonaqların rahat gediş-gəlişini təmin edir.

Ümumiyyətlə, demək olar ki, əksər yolların tikinti prosesinin böyük hissəsi yekunlaşıb. Bu da əminlik yaradır ki, tezliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulub istifadəyə veriləcək.

Bir sözlə, İkinci Qarabağ müharibəsindəki şanlı qələbədən sonra yaranan yeni reallıq göz önündədir. Qarşıya qoyulan bir nömrəli prioritet məsələ işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaqdır. Tezliklə bu yollar Qarabağa və Şərqi Zəngəzura yeni həyat gətirəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*








Azərbaycan. - 2023.-6 oktyabr.- S.7.